*Hekayə*

# Ermәni zurnaçıları



■ Sahib İBRAHİMLİ

Şaumyankənddə Lenin adına kolxozun həyətində proletariatın "dahi rəhbəri" V.İ.Leninin anadan olmasının 100 illiyi münasibətilə tədbir keçirilirdi. Tədbirə rayon partiya komitəsindən də gələnlər var idi. Kolxoz partiya komitəsinin katibi Sadıq Sadıqov Leninin beynəlmiləlçilik siyasətindən, xalqlar dostluğu sahəsində "böyük" xidmətlərindən odlu-odlu danışırdı. Sinəsi "Lenini orden"li sağıcı Südabə bacı da maddım-maddım Sadıq Sadıqovun nitqinə qulaq asır, arabir özünü saxlaya bilməyib əl çalırdı. Birdən kəndin poçtalyonu Qafar kişi Südabə bacıya yaxınlaşıb onu bir kənara çəkdi və dedi:

-Bacı, heç bilmirəm, necə deyim... Vallah, demək də istəmirəm... Amma... Sən allah, məni bağışla... Südabə bacı dilləndi:

- Əşi, bir de görüm nolub? Yoxsa yenə inəyi oğurlayıblar. Qafar kişi kəkələdi: - Vallah, deyə bilmirəm... Heç bilmirəm, necə deyim? Mən... mən...

Südabə bacı onu sakitləşdirməyə çalışdı:

- Əşi, bilirəm, yenə inəyi oğurlayıblar. Oğru köpəyoğlunu tutub verəcəm prakurora, qoy dərisini boğazından çıxartsın. Bunu eləməsəm, döşümdəki orden mənə haram olsun. Qafar kişi özünü ələ aldı:

-Ay arvad, inək məsələsi deyil. İnək olsaydı nə varıydı ki... Belə... Moskvada bazarda oğlunu ermənilər bıçaqlayıb öldürüblər.

Yer-göy Südabə bacının başına fırlandı.

- Vay, evim yıxıldı!.. Belim qırıldı!.. Çırağım keçdi!.. -deyib iki əlli başını tutdu. Yaxındakı ağacdan tutmasaydı yıxılacaqdı.

Qafar kişi günahkar kimi üzrxahlıq etməyə başladı:

- Südabə bacı, sən allah, məni bağışla... Neyləyim, vəzifəm budur də... Gərək belə olmayaydı... Onsuz da hamımız ölüb gedəcəyik. Kolxoz sədri də öləcək, daje partkom da... Fidel Kastro da öləcək... Bizim hamımız Lenin yoldaşdan artıqdır? O boyda kişi ölüb...Düzdür, zaddarı yaşayır... nədir onun adı... hə, yadıma düşdü, ideyaları yaşayır... amma özü ölüb...

* * *

Ertəsi gün Südabə bacının həyətində çadır qurulmuşdu. Kənd camaatı yas mərasiminə toplaşmışdı. Südabə bacının oğlunun meyitini Moskvadan gətirmişdilər. Südabə bacı oğlunun meyitini gətirdiklərinə görə "böyük adamlara" öz minnətdarlığını bildirdi, Sovet hökumətinə bundan sonra da ləyaqətlə xidmət edəcəyinə söz verdi.

Südabə bacı oğlunun meyiti yerdən götürülməmişdən əvvəl Zurnaçı Qədirə xəbər göndərdi. Bir azdan Zurnaçı Qədir başı alovlu özünü yetirdi: -Allah rəhmət eləsin! Mən hazır! -deyib zurnasını qoltuq cibindən çıxartdı. Südabə bacı dedi:

-Qədir kişi, sən bilirsən ki, mən bu rəhmətliyə toy eləməli idim. Qismət olmadı. Toyum vaya döndü. Elə çalmalısan ki, balamın ölümü yeri-göyü yandırsın. Allaha şükür, sən çox ölülər yola salmısan.

Zurnaçı Qədir dedi:

-Südabə bacı, ağlamalı havalara görə məni ilişdirməzlər ki? Axı Lenin yoldaş deyib ki, sovet adamı ağlamamalıdır. Opportinist olmalıdır.

-Ə, opportinist yox, optimist. Qorxma, dalında dağ kimi durmuşam. Bir dənə yanıqlı hava çal. Qədir kişi zurnanı püləməyə başladı. Südabə bacı üz-gözünü turşutdu: -Ə, yox. Xoşuma gəlmədi. Sən belə çalmaqla bu kəndin camaatını ağlada bilməzsən. Südabə bacı Qədir kişini yola saldı. Birdən yadına Zurnaçı Arakel düşdü:

-Ondan yaxşısı yoxdur -deyib arxasınca adam göndərdi. Heç beş-on dəqiqə keçməmiş Zurnaçı Arakel dəm tutan Aşotla birlikdə peyda oldular. Zurnaçı Arakel "qəhərlənib" Südabə bacıya başsağlığı verdi. Südabə bacı dedi:

-Arakel qardaş, balam əldən getdi. Dünyam dağıldı. Ümidim sənədir. Balamı sən yola salmalısan. Elə çalmalısan ki, dağ-daş ağlasın.

Arakel tez dilləndi:

-Mənim qoz...qoz.. gözüm üstdə. Bu kəndin adamlarının hamısını mən basdırmışam.

-Allah canına sağlıq versin! Allah səni bu eldən-obadan əskik eləməsin!

Meyit yerdən çiyinlərə qaldırıldı. Dərhal Arakel və Aşot zurnalarını işə saldılar. Camaat hönkür-hönkür ağlamağa başladı. Yolda Südabə bacı Arakelə dedi: - Arakel qardaş, mən oğlumun toyunu görə bilmədim. Onun toyunda oynamadım. Bir oynaq hava çal görüm. Arakel və Aşot "Tərəkəmə" havası çaldılar. Südabə bacı havalı adamlar kimi atılıb düşdü. Qohumların bəziləri isə gah Südabə bacını, gah da Arakeli və Aşotu qucaqlayıb hönkürürdülər. Dəfn musiqi sədaları altında başa çatdı. Arakel Südabə xanıma yaxınlaşdı: - Südabə bacı Allah rəhmət eləsin! Bizi yola sal gedək. Qonşu kəndə də Moskvadan meyit gəlib. Biz ora getməliyik.

Südabə bacı qoynundan pul çıxarıb Arakelə verdi və dil-ağız elədi:

-Arakel qardaş, çox sağ ol. Allah oğlunu saxlasın. Sən bütün kəndi ağlatdın. Əşi, ermənilər kimi adam ağladan olmaz. Adam ağlatmaqda dünyada sizin tayınız yoxdur.

Aşot dilləndi:

-Südabə bacı, bizə bir az da halva ver. Sənə o cür "Tərəkəmə" çaldıq.

Südabə bacı:

-Hə, Allah sizi qonşuluqdan əskik eləməsin. Sizin "Tərəkəmə"dən olmaz.-deyib tez onların hərəsinə bir büküm halva verdi. Arakel və Aşot bir ağızdan dilləndilər:

-Biz həmişə sizin qulluğunuzda hazırıq!

Dəfn mərasimində iştirak edənlər Arakelə və Aşota dönə-dönə öz minnətdarlıqlarını bildirdilər. Arakel və Aşot pullarını alıb, halva yeyə-yeyə gözdən itdilər.

***May, 2015. Gəncə.***